*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   6 mart 2019-cu il   № 18 (2335)   Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

## İnamımız - qalibiyyət bayrağı!



Bu nida Vətənin nidasıdı, ön xətdə, səngərdə, əsgərlərin əhatəsində daha duyğusallıqla eşidilir. Ezamiyyətlərdə bu nidanı bu və ya digər söz tərkibləriylə demişik də, eşitmişik də. Deyəndə də, eşidəndə də Azərbaycan Ordusunun döyüş qabiliyyətinə - qüdrətinə küsənmişik. Bu gün də həmin ovqatdayam. Bu nidanı döyüş növbətçiliyi aparan, döyüş növbətçiliyinə gedən əsgərlərdən "Biz qalib gələcəyik!" kimi eşitmək istəyirik. Ezamiyyətlərin birində "Ön xətdə xidmət etmək Vətənə daha dərin sevgilərlə bağlanmaq, Vətəni ilahilik səviyyəsində sevmək deməkdi", - səngərdə səmimiyyətlə kəlməşəndə əsgər qətiyyətlə belə demişdi. Onda baxışlarım həmsöhbətimin baxışlarıyla qoşalaşmışdı. Qoşalaşan qoşa baxışlar qarşı tərəfə dikilmişdi. Mənə elə gəlmişdi ki, 2016-cı ilin martın sonlarında da səngərlər bu əsgərin sələflərinin baxışlarının eynini görüb. İndi təmas xətti boyunca səngərlərdə baxışların mahiyyəti belədi: Biz qalib gələcəyik! - Azərbaycan əsgərinin baxışları qələbə ovqatını ifadə edir. Bu ovqat hər gün dan yeri söküləndə göy üzünün göylüyünü bürüyən bir çağırış həsrətindədi. Bu çağırış döyüş əmridi. Bu əmr torpaqlarımızın işğaldan qurtuluşu olacaq!

Ön xətdəyəm.

2016-cı ildə qışın son ayında da bu biçim yel əsirdi. Əsə-əsə istəyimizi yaza yetirmişdi. Aprel yelləri Azərbaycan əsgərinin uğur yoluna, qələbə - zəfər yoluna sarılmışdı. Bu gün titrəyişini həm də ruhən hiss etdiyimiz yellər də əsə-əsə yaza tələsir. Bu yaza "Bir başqa yazdı!", - deyəcəyik.

**(Ardı 2-ci səhifədə)**

## Martın 17-də "Açıq qapı" günü keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən ictimai nəzarətin gücləndirilməsi, şəffaflığın təmin edilməsi, ordu və xalq birliyinin daha da möhkəmləndirilməsi, əsgər ailələri ilə aparılan işin səmərəliliyinin daima artırılması məqsədilə Novruz bayramı ərəfəsində martın 17-də Azərbaycan Ordusunun tabeçiliyində olan bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü tədbirləri keçiriləcək.

Əsgər yaxınları, ictimaiyyət nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış, məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanalarına və yeməkxanalarına baş çəkəcəklər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Açıq qapı" günündə hərbi hissələrin komandanlığının valideynlərlə görüşləri təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcək.

## Silahlı Qüvvələrə Yardım Fonduna 98 milyon manatdan çox vəsait daxil olub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, martın 1-dək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 97 milyon 647 min 955,09 manat, 213 min 577,88 ABŞ dolları, 15 min 736 avro və 5 min rubl vəsait daxil olub.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb.

# İnamımız - qalibiyyət bayrağı!

**(Əvvəli 1-ci səhifədə)**

Könlümüzü telləndirən bu inamla səngərlərə çatmışıq. Bayaqdan bəri ürəyimdən keçənlərdən söz açıram. Əsgərlər maraqla dinləyirlər. Hansınınsa nəsə deməsini elə arzulayıram ki! Baş leytenant Fehruz Abbasov deyir ki, dediyiniz yellər də bu əsgərlərin istəyindən güc alacaq. Azərbaycan əsgərinin istəyində belə bir qüdrət var. O qüdrət Vətən sevgisidi, dövlətə, dövlətçiliyə, deməli, Hərbi anda sədaqətdi.

Azərbaycan Ordusunun gücündən, qüdrətindən danışırıq, Azərbaycan əsgərinin döyüş əzmindən, qələbə ruhundan danışırıq. Söhbətimizi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi bir kəlamı xatırlayıb davam etdiririk: "Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəkdir." Gizir Elgün Əhmədpaşayev deyir:

- Qətiyyətlə deyilmiş bu kəlam torpaqlarımızın işğaldan azad ediləcəyinə inamdır. Azərbaycan zabiti, əsgəri bu inamla xidmət edir, ictimaiyyət bu inamla xidmət edənlərə güvənir.

Gizir Elgün Əhmədpaşayevin işıqlı düşüncələri ürəyimizi tellendirir. Döyüş hazırlığından danışırıq:

- Son illər Azərbaycan Ordusunda həyata keçirilən irimiqyaslı islahatlar olduqca gərəkli və səmərəli oldu. Silahlanmaya ən müasir döyüş texnikaları daxil edildi, - baş leytenant Fehruz Abbasov belə deyir.

- Əsgərlərimizin döyüş əzmi, qələbə ruhu olduqca yüksəkdir. Hər biri Ali Baş Komandanın döyüş əmrinin intizarındadır desəm, səhv olmaz. Asudə vaxtlarda əsgərlərlə müxtəlif mövzularda söhbətlərimiz olur. Bu söhbətlərin hamısını birləşdirən, ümumiləşdirən bir mətləb var: qələbə, torpaqlarımızın işğaldan azad edilməsi, - gizir Elgün Əhmədpaşayev belə deyir.

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir kəlamını da xatırlayaq: "Sülh danışıqları baş tutmasa, Azərbaycan torpaqlarını döyüşlə azad edəcək. Ordumuz buna qadirdir!". Siz həm də bu inamla xidmət edirsiniz, - belə deyirəm.

Baş leytenant Fehruz Abbasov da, gizir Elgün Əhmədpaşayev də əsgərlərə baxır. Hər ikisinin baxışında ehtiram var, ülfət var, sevgi var. Bu biçim sevginin dönməzliyini 2016-cı ilin aprelində Lələtəpədə də, Bayraqtəpədə də görmüşdüm. O ehtiramın, o sevginin, o ülfətin eynini görürəm. Onda o baxışlar qalib əsgərlərə dikilmişdi, indi qələbə qazanacağına inanılan əsgərlərə. Bu qənaəti deyirəm və bayaqdan bəri eyni mətləbi yaşada-yaşada yaşadığımız gözəl ovqatın daha əzəmətlə yaşadılacağı günün səyyarəsiyik elə bil. Qışdı, payız yelləri əsir...



- Hərbi xidmət bizim xarakterimizi daha da mətinləşdirib. Orta məktəbdə oxuyanda da, çağırışçı olanda da Vətəni sevmişik. Hərbi xidmətə başlayandan sonra bu sevgi zabitlərin, gizirlərin, bizdən əvvəl xidmət edən əsgərlərin söhbətləri ilə daha da dərinləşdi. Vətənin nə olduğunu bu söhbətlər, bir də döyüş növbətçiliyi bizə əhatəli şəkildə, həm də gərəkli şəkildə yenidən öyrətdi, - əsgər Laçın Cəfərzadə belə deyir...

"Ordumuzda əsgərlərin döyüş hazırlığını mənəvi-psixoloji hazırlığı tamamlayır", - deyirəm. "Çağırışçı kimi nəyi qoruyacağımızı bilirdik. Necə qoruyacağımızı hərbi xidmətdə öyrəndik", - deyə əsgər bildirir. Mənə elə gəlir ki, hansı əsgər dillənsə məhz əsgər Seymur Məmmədovun dediklərini deyərdi...

Döyüş növbətçiliyi haqqında danışırıq.

2016-cı ilin aprel döyüşlərindən əvvəl Cocuq Mərcanlıda ezamiyyətdəydim. Qarşı tərəfi qalın qamışlıq olan mövqedə döyüş növbətçiliyindən qayıdan əsgərlə söhbətləşmişdik. Söz sözü çəkmişdi. Həyəcan amilindən də danışmışdıq. Əsgər bir qədər tərəddüdlə demişdi:

- Nə danım, döyüş növbətçiliyi haqqında zabitlərimiz də, əsgər yoldaşlarımız da məsləhətlər vermişdi. Bir qədər həyəcanlıydım. Saniyələr keçdikcə dərk edirdim ki, mən burada Vətənə siperəm. Sipər zəif olarsa, acısını Vətən çəkər. Döyüş növbətçiliyində əsgər olur, düşmən olur. O məqamlarda əsgərin ən etibarlı silahı Vətən sevgisi olur. Hər birimiz döyüş növbətçiliyini bu qüdrətli silahın işığında aparırıq. Ona görə düşmən bizdən çəkinir. Bunu da xatırladıram ki, araya sakit bir sükut çökür. Bu sakit sükutu gizir pozur (buna görə bir azdan ona təşəkkür edəcəkdim):

- Hər əsgərin özünəməxsus xarakteri olur. Bu müxtəlifliyi bir eynilik tamamlayır - hər biri Hərbi anda sədaqətlə xidmət edir. Döyüş növbətçiliyi bu eyniliyi təsdiqləyir - hər biri cəsarətlidir, hər biri diqqətcildir, hər biri döyüş növbətçiliyinə qətiyyətlə gedir, döyüş növbətçiliyini böyük məsuliyyətlə aparır.

Gizir Elgün Əhmədpaşayevin bu etibarı sezilən, hiss edilən etibardı. Bu etibar inamdı. Bu inam sevgidi. Bu sevgi Vətəndi...

Ötən il Tərtərdə Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən keçirilən kütləvi vətənpərvərlik tədbirini Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovun anasıyla yanaşı izləyirdik. Anayla 1993-cü ildə Xoruzlu kəndində görüşmüşdük, söhbətləşmişdik. Ana oğlundan daha çox Tərtərdən danışmışdı, oğlunun döyüşçü yoldaşlarından danışmışdı. Əlindən öpmüşdüm belə bir ürəyə malik olan Ananın. Bu tədbirdə də əsgərlərə müraciətlə "Hərəniz mənə bir Vəzirsiniz", - demişdi. Bu duyğusal xatırlatma əsgərləri duyğulandırır.

- Şəhidlərə ehtiram hər birimizin mənəvi borcudur, - deyirəm.

- Əlbəttə, elədir, - baş leytenant Fehruz Abbasov deyir. - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günlərdə imzaladığı sərəncamlar Azərbaycanda şəhidliyə ehtiramın təzahürüdür. Mənə elə gəlir ki, şəhid analarının hamısı Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovun anası kimi düşünür...

- Şəhidlik məfhumunun mahiyyəti Vətən sevgisi məfhumuna çox yaxındı, - deyirəm.

Gizir Elgün Əhmədpaşayev "Haqlısınız", - deyir...

Bu sevgi əhatəsində əsgərlərə xitabən deyirəm:

- Dünənsən, bu günsən, sən gələcəksən, Azərbaycan əsgəri, sən Vətən əsgərisən, sən qalib gələcəksən! Qalib gələcəksən!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***4 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***5 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Şırvanlı, Füzuli rayonunun Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Tabor komandirlərinin hazırlıq səviyyəsi yoxlanılır



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun qoşun növ və qismlərində, birlik və birləşmələrində tabor komandirlərinin hazırlıq səviyyəsi yoxlanılır.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi tərəfindən təlim mərkəzlərində, poliqonlarda keçirilən yoxlamalar zamanı zabitlərin fərdi keyfiyyətləri, müasir ümumqoşun döyüşünün idarə edilməsi üzrə təcrübələri, praktiki vərdişləri, taborun silahlanmasında olan silah və hərbi texnikanın döyüş tətbiqi qaydaları, o cümlədən istismarı üzrə bilikləri də qiymətləndirilir.

Zabitlərin nəzəri biliklərinin təyin edilməsi məqsədilə rəhbər sənədlərin öyrənilməsi üzrə testlər keçirilir, atış, taktikixüsusi və fiziki hazırlıq, eləcə də döyüş maşınlarının idarə olunması üzrə məqbullar qəbul edilir.

# “Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi”

*Türkiyə Respublikası Baş Qərargahının İstanbuldakı "Askeri Müze ve Kültür Sitesi Komutanlığı"nda Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nəşri olan "Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" adlı kitab-albomun təqdimatı olub.*



Layihənin müəllifi və tərtibçi-redaktoru - Azərbaycan Respublikası Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani təqdimat mərasimində iştirak edib.

Tədbirdə Askeri Müze ve Kültür Sitesi komutanı polkovnik Tahir Savran, "Türkiyə Şəhidlərini Anır" proqramının mətn yazarı və aparıcısı polkovnik Erhan Altunok və məşhur "Mehteran" tarixi hərbi musiqi birliyinin rəhbərləri və üzvləri iştirak ediblər.

"Mehteran" tarixi hərbi musiqi birliyinin rəhbəri polkovnik Metin Kazqan çıxış edərək ötən ilin sentyabr ayında Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradın xoş təəssüratlarını hələ də unutmadıqlarını, paytaxt Bakının gözəlliklərinə, tərəqqi və inkişafına valeh qaldıqlarını, Azərbaycan Ordusunun mətin əsgərləri ilə görüşdüklərini və onların qələbə əzmi, böyük vətənpərvərlik hissi ilə yaşadıqlarını xatırlayıb.

M.Kazqan qeyd edib ki, dünyanın bir çox ölkələrinə, şəhərlərinə səfər etsək də, Azərbaycan kimi gözəl bir ölkə, azərbaycanlılar kimi qonaqpərvər, istiqanlı, mehriban və səmimi bir xalqla qarşılaşmamışıq. “Bakı xatirələrimiz tükənməzdir, unudulmazdır. Hər iki qardaş dövlətin başçısının Azadlıq meydanında keçirilən möhtəşəm hərbi paradın fəxri kürsüsündə bir yerdə dayanması və eyni dildə parad iştirakçılarını birlikdə salamlaması, eyni zamanda Azərbaycan və Türkiyə hərbçilərinin Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində 100 il sonra da paytaxt Bakıda yanaşı nizami sıralarla irəliləməsi tarixi hadisədir və bu dostlarımızı sevindirdi, düşmənlərimizi isə xar etdi. Biz Azadlıq meydanında Azərbaycan "Ordu marşı"nı və əski türk hərbi marşlarını böyük fəxrlə ifa etdik. Həmin gün Bakının hər yerində sevinci və kədəri bir olan Azərbaycan və Türkiyənin dövlət bayraqları qürurla dalğalanırdı.”

Bakı paradına həsr olunmuş "Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" kitab-albomunu tədbir iştirakçılarına təqdim edən polkovnik Metin Kazqan çıxışına davam edərək daha sonra nəzərə çatdırıb ki, bu nəşr Türkiyə və Azərbaycan xalqlarının müştərək Zəfər bayramı olan möhtəşəm bir təntənəni özündə əks etdirən qiymətli topludur. O, bu nəşri reallaşdıran Azərbaycan Respublikası Müdafiə Nazirliyinə, şəxsən general-polkovnik Zakir Həsənova və layihə müəllifinə minnətdarlıqlarını bildirib.

Polkovnik Tahir Savran ötən əsrin 90-cı illərinin əvvəllərində Türkiyə Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu ilə Naxçıvan Muxtar Respublikasında olduğu günləri xatırlayaraq deyib: "O vaxtlar Azərbaycanda, xüsusən də Naxçıvanda vəziyyət gərgin idi. Bir tərəfdən ermənilərin şəhər və kəndləri atəşə tutması, bir tərəfdən sərt soyuqlar və mühasirəyə alınmış Naxçıvan əhalisinin ərzaq qıtlığı ilə sınağa çəkilməsi yerli əhalini heç ruhdan salmır, onlar doğma diyarı qanları, canları bahasına müdafiə edirdilər. Allah bu müdhiş zamanlarda Heydər Əliyevi sanki naxçıvanlılara xilaskar olaraq göndərmişdi. Ötən illər hədər getməyib və artıq Naxçıvanın ağır günləri geridə qalıb. Naxçıvan dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Ən müasir hərbi texnika və silahlarla təchiz edilmiş buradakı Əlahiddə Ümumqoşun Ordu Naxçıvanın və naxçıvanlıların təhlükəsizliyinin keşiyində mərdliklə dayanıb".

Ulu öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamını yada salan polkovnik T.Savran təqdim edilən kitab-albomun həqiqətən də Azərbaycan və Türkiyə xalqlarının, ordularının dost və qardaşlığının təntənəsinin tərənnümü olduğunu təsdiqləyərək nəfis şəkildə çap olunmuş bu nəşr nümunəsinin muzeylərində ən qiymətli eksponat kimi nümayiş etdiriləcəyini qeyd edib.




Polkovnik Erhan Altunok isə çıxışında vurğulayıb ki, Azərbaycan xalqının və ordusunun hər bir uğuru bizi də sevindirir. “Son illərdə Azərbaycan əsgərinin qazandığı aprel zəfəri və Naxçıvanda 11 min hektardan çox ərazinin nəzarətə götürülməsi, Günnüt kəndinin düşmən işğalından azad edilməsi, Lələtəpə, Qızılqaya, Talış zirvələrində Azərbaycan bayrağının ucaldılması hər bir türk vətəndaşını da həddsiz dərəcədə qürurlandırdı. Biz inanırıq ki, qardaş ölkənin dövlət başçısının apardığı məqsədyönlü daxili və xarici siyasət nəticəsində və gündən-günə daha da möhkəmlənən Azərbaycan Ordusunun güc və qüdrətiylə cənnət Qarabağımız da tezliklə işğaldan azad edilərək can Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq.”

E.Altunok görkəmli Azərbaycan şairləri Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin şeirlərindən nümunələr söyləməklə çıxışını yekunlaşdırıb və bu kitab-albomun nəşrini yüksək qiymətləndirib.

Layihənin müəllifi, tərtibçi-redaktor Abdulla Qurbani mərasim iştirakçılarını salamlayaraq həmin kitab-albomun ilk nüsxələrini paradda fəal iştirak etmiş və azərbaycanlıların da böyük rəğbətini qazanmış məşhur "Mehteran"ın üzvlərinə hədiyyə edib.

Askeri Müze ve Kültür Sitesi komutanı polkovnik Tahir Savran bu tarixi missiyanın həyata keçirilməsində xüsusi xidmətlərinə görə layihənin müəllifinə minnətdarlıq edib və A.Qurbanini qiymətli hədiyyə ilə mükafatlandırıb.

Təqdimat mərasimi "Mehteran"ın ifasında "Çırpınırdın Qara dəniz" mahnısı və Azərbaycan, Türk hərbi marşları ilə başa çatıb.

Sonra A.Qurbani muzeyin ekspozisiyası ilə tanış olub, vaxtilə Mustafa Kamal paşa Atatürkün təhsil aldığı sinif otağında şəkil çəkdirib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Nümunəvi xidmət

# “Hərbi xidmət Vətən qarşısında övladlıq borcumuzdur”

Hərbi hissələrə ezamiyyətimiz zamanı vətənpərvər əsgərləri yaxından tanıyırıq. Onlarla söhbət zamanı hər biri vurğulayır ki, Vətən bizə əmanətdir, biz Vətən keşikçiləriyik, şəraitdən asılı olmayaraq üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirməyi özümüzə mənəvi borc bilirik.

"N" hərbi hissəsinin ön xətt bölməsində belə vətənpərvər oğullardan daha birini əsgər Mirzəxan Əzizovu yaxından tanıdım. Zabit Sərvər Allahverdiyev onun nümunəvi xidmətindən danışdı. Mirzəxanın xidmətə gəldiyi gündən məsuliyyətli, nizam-intizamlı olmasından fəxrlə söz açdı. "Əsgər M.Əzizov bölməmizə gəldiyi gündən mərdliklə xidmət edir, döyüş postunda ayıq-sayıq dayanır. Davranışı, əxlaqi keyfiyyətləri ilə kollektiv arasında dərin hörmət qazanıb. Mirzəxan kimi üstün keyfiyyətlərə malik, vətənpərvər, igid oğullarla bir yerdə xidmət etmək mənə də ruh yüksəkliyi verir, seçdiyim peşəmə sevgimi daha da artırır. Onun və digər əsgər yoldaşlarının nümunəvi xidməti bölmənin döyüş hazırlığının artırılmasında mühüm rol oynayır. Belə cəsur, milli-mənəvi köklərimizə bağlı, dövlətinə sədaqətli oğul tərbiyə etdikləri üçün valideynlərinə dərin minnətdarlığımı bildirirəm".



- Bütün həmyaşıdlarım kimi mən də hərbi xidməti Vətən qarşısında övladlıq borcu bilirəm. Çünki Vətən anamızdır, ən müqəddəs varlığımızdır. Vətənin keşiyində dayanmaq, onu inamla qorumaq müqəddəs və şərəfli vəzifədir. Hərbi xidmətə gələn gündən nizam-intizamlı olmağı, hərbi sirlərə dərindən yiyələnməyi, vicdanla xidmət etməyi özümə söz vermişəm. Komandirimin xidmətimdən razı qaldığını bilmək məni çox qürurlandırdı, sevindirdi, daha da ruhlandırdı. Bu məqamda Xalq şairi Məmməd Arazın "Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim" misraları yadıma düşür. Ən çox sevdiyim şeirin bu misrası dilimin əzbəri olub. Bu gün nümunəvi xidmət edən əsgər kimi adım çəkiləndə bu misraların qüdrətini daha yaxşı anladım, hiss etdim. Bizi nümunəvi xidmət etməyə həm komandirlərimizin diqqət və qayğısı, doğma münasibəti, həm də yaradılan yüksək şərait ruhlandırır, - deyə əsgər M.Əzizov bildirdi.

Mirzəxan kimi mərd, vətənpərvər gənclə həmsöhbət olduqdan sonra bir daha Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Gənclər Günü münasibətilə təbrik nitqində dediyi "Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər" sözlərini xatırlayıram. Bu sözlər hər bir əsgərə, Vətəni qoruyan hər bir gəncə verilən yüksək qiymət, göstərilən qayğı və etimaddır. Əsgərlər də onlara göstərilən diqqətdən fərəhlənir, xidmətdə daha da nümunəvi olmağa çalışırlar.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Türkiyə Respublikasının Milli Müdafiə Universitetində "Dağlıq Qarabağ problemi" və "Xocalı soyqırımı" mövzularında təqdimatlar keçirilib

*"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında 10-cu Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq iclasının Protokolu"na əsasən İstanbulda, Türkiyə Respublikasının Milli Müdafiə Universitetində "Dağlıq Qarabağ problemi" və "Xocalı soyqırımı" mövzularında təqdimatlar keçirilib.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani bu mövzularda tədbir iştirakçılarına ətraflı məlumat verib.

Türk dilində təqdimat slaydlarından və əyani vasitələrdən geniş şəkildə istifadə edilməsi təqdimatçı və auditoriya arasında fikir mübadiləsinin daha səmərəli keçməsinə səbəb olub.

Polkovnik Abdulla Qurbaninin Qarabağın tarixi, ermənilərin Azərbaycanın müxtəlif bölgələrinə, eləcə də Qarabağın dağlıq hissəsinə köçürülməsinin səbəbləri, regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək, onu itaətdə saxlamaq, öz mövqelərini möhkəmləndirmək istəyən çar Rusiyasının XVIII əsrin sonlarından başlayaraq Türkiyə və İrana qarşı müharibə apararkən "erməni amili"ndən siyasi alət kimi istifadə etməsi, "Böyük Ermənistan" dövləti yaradılması üçün ermənilərə maddi və mənəvi dəstək verməsi, son 200 ildən çox bir müddətdə erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinin mərhələləri, havadarlarına arxalanan erməni-şovinist qüvvələrinin, "Armenakan", "Hnçak", "Daşnaksütyun" partiyalarının təhriki ilə törədilən qətliamlar, soyqırımlar, Türkiyə və Azərbaycanın görkəmli şəxsiyyətlərinə qarşı terrorlar, o cümlədən XX əsrin ən qanlı faciələrindən olan Xocalı soyqırımının səbəbləri, nəticələri və dünyada tanıdılması istiqamətində görülən beynəlxalq əhəmiyyətli tədbirlər barədə təqdimatı 17 ölkəni təmsil edən yüksək rütbəli zabitlər, generallar və professor-müəllimlər tərəfindən həyəcanla dinlənilib, onlarda təcavüzkara qarşı kəskin nifrət hissləri oyadıb.

Mərasim iştirakçıları Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, təbliği işində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın dünya tərəfindən tanınmış ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində bundan sonra da Azərbaycan xalqının yanında olacaqlarını bildirib, insanlığın əleyhinə yönəldilmiş Xocalı soyqırımı kimi son dərəcə ağır bir hərbi cinayətin beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini tezliklə alacağına əminliklərini vurğulayıblar.

Milli Müdafiə Universiteti rektorunun müavini general-mayor Celalettin Bacanlı polkovnik Abdulla Qurbanini 15 ildən çoxdur ki, tanıdığını, yaradıcılığına yaxından bələd olduğunu qeyd edərək, onun Vətən qarşısındakı xidmətlərini və bugünkü tarixi faktlara əsaslanan geniş və əhatəli çıxışını yüksək dəyərləndirib. C.Bacanlı nəzərə çatdırıb ki, A.Qurbani hələ 2005-ci ildə nəşr olunmuş "Qar bəbirləri" kitabında onun xidmətləri barədə də kifayət qədər məlumat verib, Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş şeirlərini oxuculara təqdim edib.

Mərasimin sonunda Milli Müdafiə Universitetinin rektoru, Osmanlı tarixinin görkəmli tədqiqatçısı, əsərləri dünyanın bir çox xalqlarının dillərinə tərcümə edilmiş professor-doktor Erhan Afyoncu çıxış edərək təqdimatların yüksək səviyyədə təşkilinə göstərdiyi köməyə görə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənova və təqdimatçı zabitə rəhbərlik etdiyi universitetin kollektivi adından minnətdarlıq edib və polkovnik Abdulla Qurbanini təşəkkürnamə və qiymətli hədiyyə ilə mükafatlandırıb.

Professor-doktor E.Afyoncu müəllifi olduğu "Osmanlı tarixi" adlı kitaba avtoqraf yazaraq onu Azərbaycanın Müdafiə nazirinə çatdırmağı xahiş edib.

Milli Müdafiə Universiteti və səfər təəssüratları barədə A.Qurbani deyib: "Dəfələrlə qardaş Türkiyədə olmuşam. Bakı Bələdiyyə Teatrının yaradıcı heyəti müəllifi olduğum "Türk Sancağı" adlı tarixi dram




əsasında hazırladığı tamaşanı İğdır, Kars, Ərzurum, Yozqat və Ankara şəhərlərində nümayiş etdirərkən mən də həmin tamaşalar öncəsi türk qardaşlarımızın qarşısında çıxışlar etmişəm. Ötən il Ankarada Şəhidləri anma mərasimlərində Türkiyənin bütün bölgələrini təmsil edən şəhid ailələri ilə görüşmüş, ayrı-ayrı tədbirlərə qatılmışam. Ancaq bu dəfəki mərasim daha məsuliyyətli, daha ciddi, daha qürurverici bir tədbir idi. Əvvəla, təqdimat nüfuzlu bir məkanda - dünyanın bir çox ölkələrinin yüksək rütbəli zabitlərinin təhsil aldıqları Türkiyə Respublikasının Milli Müdafiə Universitetində keçirildi. Bu universitet 3 il öncə Milli Müdafiə Nazirliyinə bağlı olaraq yaradılan dünyanın ən böyük ali hərbi təhsil qurumudur. 2016-cı ilə qədər Türkiyədə mövcud olan hərbi məktəblər: Quru, Dəniz, Hərbi Hava məktəbləri, gizir və zabitlərin təhsil aldıqları ali hərbi məktəblər, həmçinin tam hərbi təhsil verən hərbi akademiyalar Milli Müdafiə Universitetinin tərkibinə daxil edilib və öz nizamnamələri əsasında fəaliyyət göstərirlər. Belə bir xüsusi təyinatlı təhsil ocağı kompleksində fəaliyyət göstərən Türkiyə Respublikası Baş Qərargahının Hərbi Oyunlar və Mədəniyyət Mərkəzinin Atatürk salonunda Dağlıq Qarabağ problemi və Xocalı soyqırımı mövzularında təqdimatlar aparmaq üçün mənə göstərdikləri etimada görə Azərbaycan və Türkiyə Respublikalarının Müdafiə nazirliklərinin rəhbərlərinə dərin minnətdarlığımı bildirirəm. Bu təqdimatlar Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımının dünyaya çatdırılmasında mühüm əhəmiyyət kəsb edir. Bu kimi tədbirlərin bundan sonra da davam etdirilməsi məqsədəuyğundur".



## Azərbaycan XİN Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktorunun səsləndirdiyi fikirlərə münasibət bildirib

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyanın səsləndirdiyi fikirlərlə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "Ermənistanın yüksək səviyyəli məmurunun bu kimi fikir söyləməsi ATƏT-in Minsk Qrupunun həmsədrlərinin rəhbərliyi altında aparılan danışıqların mahiyyəti və məntiqi, xüsusilə də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Parisdə keçirilmiş sonuncu görüşünün nəticələri ilə ziddiyyət təşkil edərək, uzun illərdir ki, aparılan danışıqlar prosesinə qarşı açıq hücum xarakteri daşıyır. Mahiyyət etibarilə bu, danışıqlar prosesini məhv etmək və həmsədrlərin fəaliyyətini heçə endirmək cəhdi deməkdir. Digər tərəfdən, bu bəyanat Ermənistanın Azərbaycanın torpaqlarının işğalında birbaşa iştirak etdiyinin növbəti aşkar göstəricisidir və Ermənistanın 1949-cu il Cenevrə konvensiyaları və əlavə protokollarına zidd olaraq həyata keçirdiyi qeyri-qanuni köçürmələr siyasəti də daxil olmaqla bu ərazilərin ilhaqı planlarına bəraət qazandırmaq cəhdidir.

Bununla əlaqədar olaraq işğalçı ölkəyə xatırlatmaq istərdik ki, bu kimi təxribat xarakterli çıxışların bütün mümkün mənfi nəticələrinə görə məsuliyyəti məhz Ermənistan respublikası daşıyır.

Azərbaycan, öz tərəfindən, bu məsələni BMT, ATƏT və digər aparıcı beynəlxalq təşkilatlar çərçivəsində qaldıracaq. Eyni zamanda ATƏT-in Minsk Qrupunun həmsədrlərini Ermənistanın yüksək siyasi rəhbərliyinin nümayəndələrinin bu kimi addımlarını qəti şəkildə pisləyən bəyanatla çıxış etməyə çağırırıq".

## "Dağlıq Qarabağda məscidi tövləyə çevirənlərin İrana səfər etməsinə icazə verilməməli idi"

Dağlıq Qarabağ Azərbaycana məxsus bölgədir və Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşaraq işğalçılıqdan əl çəkməlidir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində İran İslam Şurası Məclisinə (parlamentə) Urmiya şəhərindən seçilmiş deputat Hadi Bahaduri deyib. Deputat Ermənistan baş nazirinin Xocalı soyqırımının ildönümü ərəfəsində İrana səfərinə yol verildiyi üçün Xarici İşlər Nazirliyini kəskin tənqid edib.

O, İran İslam Respublikası Ali Rəhbərinin də mövqeyini xatırladaraq qeyd edib ki, Dağlıq Qarabağ Azərbaycan və İslam torpağıdır. İran Azərbaycan ilə münasibətlərinə xələl gəlməsini istəmir. İki qonşu və dost dövlət arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Xarici İşlər Nazirliyi bu səfərin Xocalı soyqırımının ildönümü ərəfəsində baş tutmasına icazə verməməli idi.

Deputat deyib: "Hesab edirəm ki, bu səfər başqa bir vaxtda da keçirilə bilərdi. Biz Ermənistanla həmsərhəd ölkələrik. Ona görə də bu ölkə ilə əlaqələrimizin olması təbiidir. Amma bu əlaqələr İranın rəsmi siyasətinə uyğun olmalıdır. Biz parlamentdə xarici işlər nazirinə sual ünvanlayacağıq. Nazirlik açıqlamalıdır ki, nə üçün İranın sərhədləri daxilində onun rəsmi siyasətinin əleyhinə belə bir hadisə baş verib?".

Hadi Bahaduri vurğulayıb ki, dini inancımıza görə, dünyanın istənilən yerində müsəlmanların haqqı müdafiə olunmalıdır: "Dağlıq Qarabağda müsəlmanların məscidini tövləyə çevirənlərin İrana səfər etməsinə icazə verilməməli idi".

# Sıra hazırlığı döyüş hazırlığının vacib elementidir



*Bu gün ölkəmizdə ordu quruculuğu prosesi uğurla həyata keçirilir. Silahlı Qüvvələrin Ali Baş Komandanının, Müdafiə nazirinin diqqət və qayğısı nəticəsində müasir standartlara uyğun qurulan hərbi hissələr şəxsi heyətin istifadəsinə verilir. Ordu sıralarında olan əsgərlərimizin xidmətlərini düzgün təşkil etmələri üçün hər bir şərait yaradılıb. Hərbi hissələrdə müasir yeməkxanalar, tibb məntəqələri, hamam-camaşırxanalar, idman şəhərcikləri, sıra meydanları və digər xidməti sahələr şəxsi heyətin istifadəsindədir.*

"N" hərbi hissəsində də inşa edilən müasir binaların gözəlliyi, ətrafın səliqə-sahmanı göz oxşayır. Şəxsi heyətin hərbi hissənin ərazisində və təyin olunmuş yerlərdə dərslərlə məşğul olduqlarını gördük. Sıra meydanında da bir qrup şəxsi heyət plana uyğun olaraq sıra hazırlığı ilə məşğul olurdu. İzlədiyimiz dərs prosesindən zövq aldıq.

Əsgərlərin nizami addımlarla hərəkəti, rəisə yaxınlaşaraq hərbi salam verməsi şəxsi heyətin nizam-intizamlı olmasından xəbər verir. Zabitin elan etdiyi fasilədən yararlanaraq əsgərlərimizlə həmsöhbət olduq. Gənc zabit Həsən Həsənov dərsin məzmunu haqda məlumat verərək dedi: "Sıra hazırlığı xidmət edən hər kəs üçün vacibdir. Çünki nizam-intizam birinci növbədə sıradan başlayır. Ona görə də hər həftə təyin olunmuş vaxtda sıra meydanında müxtəlif mövzularda sıra hazırlığı ilə məşğul oluruq. Bugünkü məşğələdə əsgərlərə səfər və sıra addımlarının fərqini, rəisə hərbi salam vermə qaydalarını və sırada duruş qaydalarını öyrədirik. Artıq məşğələmizin əsas hissəsi bitib. Sonda şəxsi heyət tribuna qarşısından sıra addımlarıyla keçərək bacarıqlarını nümayiş etdirəcək."

Gənc zabit onu da qeyd etdi ki, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib və xidmət yerinə yollanıb. Bu gün məktəbdə öyrəndiklərini sayəsində xidmətdə heç bir çətinlik çəkmir. "Kursantlıq illərində çalışırdım ki, zabitlərimizin və müəllimlərimizin bizə öyrətdiklərini mənimsəyim. Bilirdik ki, öyrəndiklərimiz xidmətimiz zamanı köməyimizə çatacaq. Sıra hazırlığı dərslərində taqım komandirimin verdiyi komandaları yüksək səviyyədə yerinə yetirirdim. Verilən əmri nə qədər cəld və düzgün yerinə yetirsən, o səndə vərdiş halı alacaq. Mən öyrəndiklərimə görə komandirlərimə minnətdaram və istəyirəm ki, gələcəkdə tabeliyimdəki şəxsi heyət də bacarıqlı olsun. Çünki onların uğuru bizim uğurumuzdur."

Əsgər İsmayıl Ələkbərov az müddətdir xidmətdə olmasına baxmayaraq kifayət qədər bilik əldə etdiyini bildirdi: "Hərbi xidmətə gəldiyim gündən öz üzərimdə çalışıram. Əgər qalib gəlmək və düşməndən üstün olmaq istəyirsənsə, onda bildiklərinlə kifayətlənməyib daha çox çalışmalısan. Sıra hazırlığı da döyüş hazırlığının vacib elementlərindəndir. Keçirilən dərslərdə hamımız fəal iştirak edirik. Sıra hazırlığında öyrəndiklərimiz təntənəli mərasimlərdə, bayram günlərində sərbəst olmağımıza, həyəcansız tribuna önündən keçməyimizə kömək edir."

- Sıra hazırlığı olmayan bir bölmənin döyüş hazırlığından danışmaq olmaz, - deyə manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ceyhun İsmayılov söhbətimizə qoşuldu. - Mütəmadi olaraq şəxsi heyətlə sıra elementlərini məşq edirəm. Əsgərlər bütün dərslərdə olduğu kimi, sıra hazırlığı məşğələsində də yüksək əzmkarlıq göstərirlər. Verilən əmrləri yerinə yetirmələrindən görünür ki, onların dərsləri öyrənmək həvəsi yüksəkdir. Biz komandir heyətinin də borcudur ki, bu cür gənclərə yeni-yeni mövzular keçək, onların biliklərinin artmasına yardımçı olaq.

Əsgərlərdən Cavid Hüseynli və Rauf Abdiyev eyni vaxtda xidmətə çağırılıblar. Hər ikisi Şəmkir rayonundandır. Eyni rayondan olsalar da, bir-birilərini xidmət müddətində tanıyıblar. İlk tanışlıqları isə sıra hazırlığından başlayıb. Cavid deyir ki, Rauf ona bir çox sıra elementləri öyrətməkdə köməklik göstərib. "Gənc əsgər hazırlığı dövründə sıra hazırlığına daha çox üstünlük verirdilər. Yeni gəldiyimiz üçün bir az çətinlik çəkirdik. Nə düzgün addımlaya, nə də düzgün hərbi salam verə bilirdik. Müəyyən müddətdən sonra komandirlərimizin sayəsində öyrəndik. Amma bir çox hərəkətlərdə çətinlik çəkirdim. Rauf mənə çətinlik çəkdiyim bir sıra elementləri izah etdi. Müəyyən müddətdən sonra artıq bütün elementləri rahatlıqla yerinə yetirirdim. Bu gün sıra hazırlığımın mükəmməl olmasına görə həm komandirlərimə, həm də dostum Raufa minnətdaram."

Digər əsgərlər Elvin Balayev və Elşad Heydərli də ordumuzun sıra hazırlığının yüksək səviyyədə olduğunu qeyd etdilər. "Təkcə bölməmizdə deyil, bütün ordumuzda döyüş hazırlığının digər növləri kimi sıra hazırlığı da yüksək səviyyədədir. Buna həm keçirilən paradları, həm də tədbirlərdə yüksək nizam-intizamı ilə sırada dayanan şəxsi heyəti nümunə göstərmək olar. Bu gün ordumuz hər bir hazırlığı ilə düşməni işğal olunmuş torpaqlarımızdan qovmağa tam hazırdır."

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# İdmana qayğı daim diqqət mərkəzindədir



*Yasamal rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Texniki Universitetinin İdman sarayında 5 mart Bədən tərbiyəsi və idman gününə həsr olunmuş festival keçirildi.*

Tədbir Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin səsləndirdiyi marşın sədaları altında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət bayrağının meydana gətirilməsi ilə başladı.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Festivalda Yasamal rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Ədalətli Oyunlar Komitəsinin sədri Xəzər İsayev, Bakı şəhər Gənclər və İdman Baş idarəsinin rəisi Raqif Abbasov, Yasamal rayonundan seçilmiş millət vəkilləri Ülvi Quliyev və Elşad Həsənov, yunan-Roma güləşi üzrə Dünya və Avropa çempionatlarının mükafatçısı Elvin Mürsəliyev, ağırlıqqaldırma üzrə dördqat dünya, yeddiqat Avropa çempionu, dünya rekordçusu Vüqar Namazov, kikboksinq üzrə 23 qat dünya çempionu, Əməkdar məşqçi Eduard Məmmədov və digərləri iştirak edirdilər.

Yasamal rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov qeyd etdi ki, ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət ildən-ilə daha da artır, idmançılarımızın beynəlxalq arenalarda qazandığı nailiyyətlər buna bariz nümunədir. "Ümummilli lider Heydər Əliyev ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafına daim diqqət göstərib. Ulu Öndərimizin layiqli davamçısı, dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev də idmana, onun inkişafına hər zaman həssaslıqla yanaşır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il martın 4-də "Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında Sərəncam imzalaması idmana xüsusi diqqətin təsdiqidir. Dövlət başçısının idmanı sevməsi, idmançılara xüsusi həssaslıqla yanaşması, onların peşəkar səviyyədə hazırlanmasına göstərdiyi davamlı qayğı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, olimpiya idman komplekslərinin və idman bazalarının yaradılması haqqında qərarları buna əyani sübutdur. Bu qərarlar daim müsbət nəticələr verir, olimpiya və dünya çempionatlarında qazanılan müvəffəqiyyətlər yüksələn xətlə gedir. İndi nəinki Bakıda, ölkəmizin bütün bölgələrində müasir olimpiya idman kompleksləri tikilib, idman mərkəzləri uğurla fəaliyyət göstərir".



Digər çıxış edənlər də idmançılarımızı bu gün münasibətilə təbrik edərək, dövlət başçısının idmançılara və idmana göstərdiyi diqqət və qayğıdan danışdı, Azərbaycanda keçirilən beynəlxalq çempionatların, yarışların idman ölkəsinə çevrilməyimizə səbəb olduğunu qeyd etdilər. Qeyd olundu ki, son illərdə ölkəmizin idman sahəsində qazandığı uğurlar hər kəsi sevindirir. Gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında bədən tərbiyəsinin və idmanın böyük rolu vardır.

Festivalın rəsmi hissəsi bitdikdən sonra idmanın kapoyera və uşu növləri üzrə nümunəvi çıxışlar nümayiş etdirildi. Sonra proqrama uyğun olaraq populyar müğənnilərin ifasında musiqi proqramı təqdim olundu.

Tədbirdə bir qrup məşqçi və idmançı 5 mart Bədən tərbiyəsi və idman günü münasibətilə yeniyetmə və gənclər arasında idmanın təbliğində göstərdiyi səmərəli fəaliyyətə, habelə idmanda əldə etdiyi yüksək nailiyyətlərə görə Yasamal rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı ilə təltif edildilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

Ordu və cəmiyyət

# Təhsil ocaqlarında hərbi vətənpərvərlik tədbirləri



*Gənclərə hərbi vətənpərvərlik və milli-mənəvi dəyərlərin təbliğinə yardımçı olmaq, həmçinin Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul qaydalarının şagirdlərə çatdırılması məqsədilə nazirliyin nümayəndə heyəti bölgələrdə yerləşən orta məktəblərdə hərbi rəhbərlər və yuxarı sinif şagirdləri ilə kompleks tədbirlər keçiriblər. Tədbirlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*

Silsilə tədbirlərdə, məktəblilər arasında hərbi vətənpərvərlik, milli-mənəvi şüurun təbliği və aşılanması işinin ən yüksək səviyyəyə çatdırılmasında Müdafiə və Təhsil nazirliklərinin birgə fəaliyyətinin mühüm aspektlərindən danışılıb. Hərbi vətənpərvərlik işinin səmərəli təşkili üçün fikir mübadilələri aparılıb, hərbi rəhbərlərin təklifləri və istəkləri qeydə alınıb.

Polkovnik-leytenant Natiq Məhərrəmov əbədiyaşar komandan Heydər Əliyevin dediyi "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" sözlərini səsləndirərək qeyd edib ki, gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili bizim qarşımızda duran ən vacib məsələlərdən biridir.

- Yeniyetmə və gənc nəslin milli köklərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması işi peşəsindən asılı olmayaraq hər kəsin qarşısında duran ən ümdə vəzifələrdəndir. Bu yolda pedaqoji kollektivin də zəhməti böyükdür. Bu gün sevindirici məqam odur ki, əsgəri xidmətə çağırılan gənclərimiz ordu quruculuğundan məlumatlıdırlar. Sizlərin zəhməti və əzmkarlığı sayəsində gənclərimiz ilkin hərbi bilik və vərdişlərə yiyələnirlər. Gənclərin ordu həyatı ilə ilkin tanışlıqları onların hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarına zəmin yaradır. Hansı peşədə çalışmasından asılı olmayaraq, gənclərimizin milli qürur hissinə sahib olan, dövlətçiliyimizi qoruyub saxlayan, Vətənini sevən, onun yolunda canından keçməyə hazır olan vətəndaşlar kimi formalaşmasında hər kəs bir olmalı, birgə fəaliyyət göstərməlidir. Bu işdə ən böyük məsuliyyət isə Müdafiə və Təhsil nazirliklərinin üzərinə düşür. Mühüm vəzifənin öhdəsindən layiqincə gəlmək üçün pedaqoji kollektivlə əlaqələrimizi daha da möhkəmlədəcək, gənclərimizin vətənpərvər, mərd, cəsur, cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşması istiqamətində daha böyük işlər görəcəyik.

Təhsil şöbəsinin nümayəndəsi Mürsəl Qasımov bildirib ki, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması bizim ən vacib vəzifələrimizdən biridir. "Pedaqoji kollektiv olaraq tədris olunan fənlərlə yanaşı, şagirdlərdə Vətənə məhəbbət hissini daha da qüvvətləndirmək, vətənpərvərliyin məzmununu onlara düzgün çatdırmaq əsas vəzifələrimizdəndir. Şagirdlərlə mütəmadi olaraq bu istiqamətdə söhbətlər aparır, qəhrəmanlıq nümunələrindən danışırıq. Parta arxasında əyləşən hər bir şagirdimiz yaxşı anlayır ki, hərbi xidmət keçmək, Vətəni müdafiə etmək onların övladlıq borcudur. Biz də şagirdlərimizi Vətənimizin fəal müdafiəsinə hazırlayır, ilkin hərbi vərdişləri öyrədirik. Onlarla peşə seçimləri haqqında söhbətlərimiz də olur. Gənclərimizdə vətənpərvərlik, hərb peşəsinə sevgi, orduya rəğbət o qədərdir ki, oğlanlarla yanaşı, qızlarımız da hərbçi olmaq arzusundadırlar. Onların hər biri yaxşı bilir ki, aprel döyüşlərində, Günnüt zəfərində düşmənə qan uduran qəhrəman oğullarımız da vaxtilə parta arxasında əyləşiblər. Bu gün şagirdlərimizdə olan vətənpərvər ruh onun göstəricisidir ki, dövri-qədimdən qəhrəmanlarımız olub, bu gün də var, sabah da olacaq."

Polkovnik-leytenant Azər Əliyev hərbi xidmətə çağırılan gənclərdə Vətən sevgisinin yüksək səviyyədə olduğunu vurğulayıb. "Torpaqlarımızın işğal altında olduğu bir zamanda hərbi xidmət keçməyin vacibliyini yaxşı dərk edən gənclərimiz, vəzifə borclarının öhdəsindən uğurla gəlir, nümunəvi xidmət edirlər. Bu gün ordumuzun istənilən bölməsində xidmət edən gənclərin həm döyüş hazırlığı yüksəkdir, həm də mənəvi-psixoloji hazırlığı. Bir sözlə, bu gün sizin təlim-tərbiyə verdiyiniz şagirdlər sabahın Vətən müdafiəçiləridirlər. Danılmaz faktdır ki, gənclərimizin orta məktəbdə müəyyən hərbi biliklərə yiyələnməsi onların peşəkar hərbçilər kimi formalaşmasında vacib rol oynayır. Bu işdə birgə əməkdaşlığımız bundan sonra da davam etdiriləcək. Şagirdlərimizi Mübarizlər, Raquflar, Turallar, Çingizlər... kimi mərd, cəsur, Vətənə bağlı igidlər kimi yetişdirməliyik."



Polkovnik-leytenant A.Əliyev hərb peşəsinə yiyələnmək arzusunda olan şagirdlərin suallarını cavablandırıb, bu peşənin müqəddəsliyindən danışıb. "Müasir Azərbaycan Ordusunun qurucusu, ümummilli liderimiz Heydər Əliyev gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə ciddi diqqət yetirərək "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" demişdir. Zabit peşəsi, doğrudan da, ən müqəddəs və vacib peşələrdən biridir. Bu peşənin sahibləri Vətən qoruyucularıdırlar. Peşə seçimi zamanı gənclərin böyük qisminin hərbçi peşəsinə yiyələnmək arzusu olmasını bir zabit kimi məni qürurlandırır. Cəmiyyətimizdə orduya rəğbət, sevgi yüksəkdir, bu o deməkdir ki, ailələrdə, məktəblərdə hərbi vətənpərvərliyin təbliği düzgün təşkil edilir. Həmçinin ölkə səviyyəsində orduya göstərilən yüksək diqqət və qayğı Ulu Öndərin siyasi kursunun layiqincə davam etdirildiyinin bariz nümunəsidir. Əziz gənclər, sizin hərbçi olmaq arzunuz bizi çox sevindirir. Hər biriniz seçdiyiniz yolun müqəddəs olduğunu yaxşı dərk edin. Düzdür, hər peşə şərəflidir, lakin hərbçi olmaq, torpaqlarımızı, xalqımızı yağılardan qorumaq ən şərəfli peşədir. Bu seçimdə hər birinizə uğurlar arzulayıram. Bilməyinizi istəyirəm ki, arzusunda olduğunuz bu yol qəhrəmanlıq yoludur. İnanıram ki, hər biriniz savadlı, bacarıqlı zabitlər olacaq, şanlı ordumuzun adına layiqli xidmət edəcəksiniz."



Silsilə tədbirlərdə bir daha şahidi olduq ki, hərbi vətənpərvərlik, milli-mənəvi şüurun təbliği və aşılanması məsələsi daim diqqət mərkəzində saxlanılır. Danılmaz faktdır ki, ictimai səciyyə daşıyan vətənpərvərlik tərbiyəsi şagirdlərin vətəndaş kimi formalaşmasında, öz Vətənini ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir. Vətənpərvərlik Vətənin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə, dövlətin müəyyənləşdirdiyi qaydalara şüurlu əməl etməkdə ifadə olunur. Aparılan fikir mübadilələrində qeyd olundu ki, torpaqlarımızın 20 faizinin işğalda olduğu bir vaxtda orta məktəblərdə milli şüur tərbiyəsinin aktual problem olduğunu pedaqoji kollektiv dərk edərək bu istiqamətdə sistemli tədbirlər keçirir. Belə tədbirlərdə vətənpərvərlik tərbiyəsinin aşılanmasında xalqımızın min illər əvvəl dedikləri tarixi kəlamlarda ifadə olunan Vətənə vurğunluq şagirdlərə xatırlanır. Ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən bir də vətənpərvərlik hisslərinin tərbiyəsi və aşılanmasıdır. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Hər kəsə bəllidir ki, vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Bu istiqamətdə keçirilən tədbirlər göstərir ki, dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi diqqət mərkəzindədir.

Tədbirlərdə, həmçinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, Hərbi Tibb Fakültəsinə və Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul qaydaları izah edilib, şagirdlərin sualları cavablandırılıb. Həmin məktəblərin məişət şəraitindən, təhsilindən, kursantların sosial təminatlarından bəhs edən bukletlər paylanılıb. Sonra hərbi məktəblər haqqında videoçarxa, hərbi vətənpərvərlikdən bəhs edən filmlərə baxış olub.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Beynəlxalq humanitar hüquq mövzusunda seminar keçirilib

*2019-cu ilin fəaliyyət planına əsasən, Müdafiə Nazirliyinin dəstəyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə hərbi hissədə beynəlxalq humanitar hüquq mövzusunda seminar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, BQXK-nin Azərbaycan nümayəndəliyinin əməkdaşları şəxsi heyət qarşısında müxtəlif mövzularda çıxış edib və onları maraqlandıran sualları cavablandırıblar.




# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında xidmətdən yayınmaq məqsədilə hərbi hissəni özbaşına tərk edənlərin sayı azalmır. Hərbi hissədən qaçanların əksəriyyəti izahatlarında fərarilik etmələrinin səbəbi kimi, şəraitin acınacaqlı olduğunu göstərirlər.

Ağdam istiqamətində yerləşən düşmən ordusunun birinci taborunda xidmət edən Vahan Aleksanyan da hərbi hissədə mövcud olan vəziyyətə tab gətirməyərək bölmədən özbaşına qaçıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində baş alıb gedən özbaşınalıq səbəbindən erməni əsgərlər "dedovşinanın" qurbanı olurlar.

Eyni gündə düşmən ordusunun beşinci və yeddinci dağatıcı alaylarında nizamnamədənkənar münasibətlər zəminində analoji iki cinayət hadisəsi baş verib. Zabitin təhqirlərindən bezən çavuş Hovanesyanla, bölük komandiri Sevaq Qazaryan arasında baş verən mübahisə nəticəsində zabit kəllə-beyin travması alıb.

Yeddinci dağatıcı alayında isə bölmənin çavuşu Sarkisyanla əsgər Hunanyan arasında baş verən davada çavuş gözündən xəsarət alıb.

Hər iki hərbçi hospitala təxliyə edilib. Faktla bağlı hərbi polis araşdırma aparır.

**Hazırladı:
İsa ELDAROĞLU**

# İşğal altındakı ərazilərdə qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması ilə bağlı beynəlxalq konfrans keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu tapşırığa uyğun olaraq, "Hərbi işğal altında olan ərazilərdə iqtisadi və digər fəaliyyətlərin qeyri-qanuniliyi: üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsirləri" mövzusunda Bakıda beynəlxalq konfrans keçirilir.

AZƏRTAC xəbər verir ki, tədbirin əsas məqsədi Ermənistanın hərbi işğalı nəticəsində nəzarət olunmayan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərində təcavüzkar dövlətin və digər ölkələrin hüquqi və fiziki şəxslərinin qanunsuz hərəkətlərini dünyanın nüfuzlu beynəlxalq hüquqşünasları və ekspertlərinin, o cümlədən ölkəmizin aidiyyəti qurumlarının mütəxəssislərinin də iştirakı ilə müzakirə etmək, bu fəaliyyətin hüquqi aspektlərini və nəticələrini müəyyənləşdirməkdir.

Konfransda əvvəlcə Xarici İşlər naziri Elmar Məmmədyarovun, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin, iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədovun və UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Meçtild Rösslerin çıxışları dinlənilib.

Sonra isə konfrans "Hərbi işğal altında olan ərazilərdə qeyri-qanuni fəaliyyətlə bağlı beynəlxalq hüquqi çərçivə", "Beynəlxalq hüquqda üçüncü tərəflərin öhdəlikləri və məsuliyyəti", "İşğal olunmuş ərazilərdə aparılan qanunsuz iqtisadi fəaliyyətə beynəlxalq cavab" adlı panel iclaslarla davam etdirilib.

*Hərbi texnikalar, silahlar*

# Tank əleyhinə "Hermes" raket kompleksi



Tank əleyhinə uzaqmənzilli "Hermes" raket kompleksi son nəsil yüksək dəqiqliyə malik və idarəolunan raketlərlə təchiz olunmuş kompleksdir. "Hermes" raket kompleksi tək və yaylım atəşi ilə 100 kilometrlik məsafədə yerləşən qrup halında hədəfləri məhv etmək üçün nəzərdə tutulub. Bu kompleksin əsası modul prinsipindən ibarətdir. Bu da ona hər bir tapşırığı yerinə yetirmək üçün qüvvə və vasitələrin sayını optimallaşdırmağa imkan verir. Həm də onların bir neçə variantları da mövcuddur ki, onlar baza növlərinə və texniki cəhətlərinə görə fərqlənirlər. Bunlar yüksək dəqiqliyə malik raketlərlə təchiz edilmiş "Hermes", "Hermes-A", Hermes-S", "Hermes-K" kompleksləridir. Silahlanmaya qəbul olunduğu vaxtdan tank əleyhinə vasitələrdən istifadə etməklə düşmən bölmələrinin dərinliyinə qədər hərəkət edə bilir. Öz növbəsində praktiki olaraq müdafiənin bütün sahələrində hücumları əks etdirə bilir. Bununla ona atəş mövqelərini dəyişməyə ehtiyac olmur. "Hermes" kompleksi effektli olaraq müdafiə olunan hissədə minimal itki verməklə zirehli tank bölmələrinin irəli keçməsini və onların mövqelərdə yerləşməsini təmin edir.

Kompleksin tərkibinə hava bazalı "Hermes-A" da daxildir ki, "Klevok-A" təyinatını alıb. Hazırda bu kompleks Su-39, Ka-52, Mi-35, eləcə də Mi-17 hərbi-nəqliyyat helikopterlərində quraşdırılır. Onlar mövqedən kənarda yerləşməklə düşmənin hava hücumundan müdafiə vasitələrini məhv etməyə qadirdir. Bundan başqa tank əleyhinə "Hermes" raket kompleksi ilk raketi ilə kiçik ölçülü hədəfləri məhv edə və həyati vacib olan iri element və xətləri sıradan çıxarda bilər. Bütün gün ərzində kompleksin istifadəsini optik-elektron sistemi həyata keçirir. Onun da tərkibinə televizion və televizion kanallı stabil optik-elektron sistem (gecə və gündüz), onunla birlikdə ikikanallı lazer hədəfgöstərici və avtomatik olaraq hədəfi müşayiətetmə sistemi daxildir.

Raketin 40 kilometrlik məsafəyə qədər olan maksimal-orta uçuş sürəti saniyədə 1300 metrdir. Mərmi-fuqas döyüş hissəsinin çəkisi 28 kiloqram, nəqliyyat-buraxıcı konteynerdə raketin çəkisi 107 kiloqramdır. Nəqliyyat-buraxıcı konteynerin uzunluğu isə 3500 millimetrdir. Müsbət və mənfi 50 dərəcə hava temperaturunda işləyə bilir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə iki ayda 42 PKK terrorçusu təslim olub



Cari ilin iki ayında 42 PKK terrorçusu Türkiyənin təhlükəsizlik qüvvələrinə təslim olub.

Bu barədə Türkiyənin daxili işlər naziri Süleyman Soylu açıqlama verib. Nazir bildirib ki, terrorçulardan 27-si aparılan təbliğat və izahat işləri nəticəsində təslim olub. Onun sözlərinə görə, Türkiyədə istehsal olunan milli texnologiyalar, o cümlədən pilotsuz aparatlar terrorçuların sığındığı yerlərin aşkarlanmasına əhəmiyyətli dərəcədə kömək göstərir.

## Ukrayna yeni zirehli hərbi avtomobilini nümayiş etdirib



Ukraynanın zirehli "BARC-8" hərbi avtomobilinin sınağı uğurla həyata keçirilib. Bu barədə ölkənin Nazirlər Kabineti məlumat yayıb.

"Bu avtomobil dünya standartlarına tam cavab verir. Avtomobildə ballistik raket sistemi quraşdırılıb", - deyə məlumatda qeyd olunub. Zirehli avtomobildən hərbi əməliyyatların, taktiki tapşırıqların yerinə yetirilməsində istifadə ediləcək.

## Cənubi Koreya və ABŞ birgə hərbi təlimlərə başlayıb



Martın 4-də Cənubi Koreya və ABŞ "Tonmen" (İttifaq) kod adı altında müştərək hərbi təlimlərə başlayıb.

Cənubi Koreya Müdafiə Nazirliyinin məlumatına əsasən, bu təlimlər "Kye Resolve", həmçinin "Toksuri" ("Foal Eagle") manevrlər seriyasının əvəzinə keçirilir.

Martın 2-də Koreya Respublikasının müdafiə naziri Çon Gön Du ilə Pentaqon rəhbərinin vəzifələrini icra edən Patrik Şanhan arasında telefon danışığı zamanı hər iki tərəf "Kye Resolve" və "Foal Eagle" təlimlərinin dayandırılması barədə razılığa gəlib. Yeni təlimlərin həm müddət, həm də miqyas baxımından əvvəlkilərdən kiçik olacağı bildirilir.

Koreya Respublikası Müdafiə Nazirliyinin nümayəndəsi Soy Hön Su Seulda keçirilən brifinqdə Koreya yarımadasındakı vəziyyət baxımından yeni komanda-qərargah təlimləri ilə bağlı problem görmədiyini deyib.

ABŞ və Cənubi Koreya təlimlərin miqyasının kiçildilməsinin yarımadanın nüvəsizləşdirilməsi prosesinə təkan verəcəyini düşünür.

Pxenyan adətən Cənubi Koreya-ABŞ manevrlərinə qarşı kəskin etirazını bildirir və bunu KXDR ərazisinə potensial hücuma hazırlıq hesab edir.

Koreya yarımadasında 1950-1953-cü illərdə baş verən münaqişə atəşkəs sazişi ilə sona çatıb. Odur ki, ABŞ və KXDR hələ də formal olaraq müharibə vəziyyətindədir.

## İran ordusu iki yeni radar sistemi ilə təchiz edilib



İranın milli istehsalı olan iki radar sistemi istifadəyə verilib.

"Moin-40" və "Nasir-40" adlı radar sistemləri İranın Hava Hücumundan Müdafiə Qüvvələrinin komandanı general Əlirza Səbahifərdin iştirakı ilə istismara buraxılıb. General bildirib ki, "Nasir-40" radarına gizli radar da deyilir. Çünki düşmənin istər pilotlu, istərsə də pilotsuz təyyarələri və bu təyyarələrin elektron naviqasiya sistemləri bu radarın yerini təsbit edə bilmir. "Moin-40" radarı isə düşmən təyyarələrinin hansı hündürlükdə uçduğunu və nə tip təyyarə olduğunu müəyyən edir.

**AZƏRTAC-ın materialları əsasında**

# “Son nəfəsimə kimi xalqıma, Ana Vətənimə xidmət edəcəyəm”





Bu günlərdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin kitabxanasında Şəhid Anaları Xeyriyyə Mərkəzinin rəhbəri, Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın anası Rəfiqə Əsgərovanın 85 illik yubileyinə həsr olunmuş "Ana Vətən" mövzusunda tədbir keçirildi.

Respublikamızın tanınmış ziyalıları, veteranları və KİV nümayəndələrinin iştirak etdiyi tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Tədbirdə pedaqogika üzrə fəlsəfə doktoru, professor şəhid anası Rəfiqə Əsgərovanın müəllifi olduğu çoxsaylı kitabların sərgisi təşkil olunmuşdu.

Kitabxananın müdiri, Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı tədbirin keçirilməsində əsas məqsədin gənclərimizə vətənpərvərlik tərbiyəsinin aşılanmasından, Vətən, torpaq uğrunda canlarından keçən şəhidlərimizin, döyüş meydanlarında hünər göstərən Milli qəhrəmanlarımızın təbliğ olunmasından və şəhid analarının bu istiqamətdə gördüyü işlərin əhəmiyyətinin ictimaiyyətə çatdırılmasından ibarət olduğunu bildirdi. "Bu yöndə Rəfiqə xanımın gördüyü işlər əvəzsizdir. Onun keçdiyi şərəfli ömür yolundan, yaradıcılığından, ictimaiyyət arasındakı nüfuzundan, gördüyü işlərdən, çəkdiyi əziyyətlərdən saatlarla danışsaq da, kifayət etməz. Rəfiqə xanımın xidmətlərini saymaqla bitmir. Onun "Son nəfəsimə kimi xalqıma, Ana Vətənimə xidmət edəcəyəm" sözləri hər birimizə nəsihətdir."

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestr xidmətinin rəisi, Xalq artisti, professor general-mayor Yusif Axundzadə, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, mayor Ramil Qasımov, Respublika "Xatirə Kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova, yazıçı-publisist Azər Hacıbəyli və başqaları çıxış edərək Azərbaycanın suverenliyi və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin cəsarətindən, fədakarlıq nümunələrindən, o cümlədən Azərbaycanın ilk qadın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın keçdiyi həyat və döyüş yolundan söhbət açdılar.

Bildirildi ki, xalqımız şəhidlik zirvəsinə ucalan Vətən övladlarının adlarını heç bir zaman unutmur. Dövlətimiz əsgəri şücaət göstərən qəhrəmanlarına böyük hörmətlə yanaşır və xatirələrini əbədiləşdirir. Onların adları qəhrəmanlıq tariximizin qızıl səhifələrinə əbədi həkk olunur.

Milli Qəhrəman Gültəkin Əsgərovanın fədakarlığı, vətənpərvərliyi, qəhrəmanlığı və şərəfli ömür yolunun gənc nəslə nümunə olduğunu bildirən natiqlər, eyni zamanda belə tədbirlərin gənclərimizdə vətənsevərlik, torpaqsevərlik kimi hisslərin yaranmasında böyük əhəmiyyət daşıdığını qeyd etdilər.

Natiqlər, həmçinin ölkəmizin rəhbəri Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan insanların ailələrinə hər zaman yüksək diqqət və qayğısından danışdılar: "Ötən il dövlətimizin başçısının prezident seçildikdən sonra imzaladığı ilk fərman məhz şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olub. Bir müddət əvvəl dövlətimizin başçısının şəhid ailələri ilə görüşü, onların problemlərini, qayğılarını dinləməsi ölkə başçısının şəhid ailələrinə münasibətinin daha bir göstəricisi idi."

Onlar çıxışlarında ölkə Prezidentinin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində torpaqlarımızın tezliklə erməni işğalından azad olunacağına əminliklərini ifadə etdilər.

Tədbir iştirakçıları Rəfiqə Əsgərovanın müəllifi olduğu "Gültəkin zirvəsi" adlı kitab və digər nəşrlər barədə məlumatları da diqqətlə dinlədilər.

Milli Qəhrəmanın anası Rəfiqə Əsgərova Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinə göstərilən dövlət qayğısından danışdı, Ana Vətənin azadlığı naminə canından keçən əziz övladı haqqında kövrək xatirələrini bölüşdü, belə bir şərəfin hər ailəyə nəsib olmadığını fərəh hissi ilə dedi. Şərəfli döyüş yolu keçmiş Gültəkin Əsgərovanın xatirəsini uca tutduqları üçün tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi.

Mərasim Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təşkil etdiyi konsert proqramı ilə davam etdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# “Ehtiyat zabit hazırlığı kursu”na qəbul başlayıb

Müdafiə Nazirliyinin hərbi hissələrində zabit kimi həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək vətəndaşlar, habelə hərbi hissələrdə vakant hərbi psixoloq vəzifələrinə təyin olunmaq məqsədilə psixoloq ali təhsili olanlar martın 4-dən 27-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (SQ TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir və komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər "Ehtiyat zabit hazırlığı kursu"na qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran kursantlara leytenant hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

Namizədlər SQ TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə - 1 nüsxədə və çap edilmiş - 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 ədəd;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 ədəd;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 ədəd;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 2 ədəd;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 ədəd;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə);
- psixiatrik, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması barədə arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 ədəd.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi)

**Telefon:** (012) 538-85-62

Müraciət etmə vaxtı: 2019-cu il martın 4-dən 27-dək hər gün (bazar günü istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

**Qeyd:** Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

# MOİK idmançılarının qələbələri

Futbol üzrə Azərbaycan çempionatının I divizionunda XVII turun oyunlarına start verilib. MOİK hesabat turunda "Şüvəlan"ı qəbul edib.

Lökbatan Olimpiya İdman Kompleksinin stadionunda keçirilən oyun komandamızın tam üstünlüyü şəraitində keçib. Görüşün taleyini 1, özü də elə 1-ci dəqiqədə vurulmuş qol həll edib. Raul Yaqubzadə uzaqdan baxımlı qol vurmaqla "hərbçilər"in ikinci dövrədəki qələbə seriyasının 4 oyuna çatmasına töhfə verib.

Xatırladaq ki, MOİK bundan əvvəl "Kəpəz", "Turan Tovuz" və "Zirə-2"ni məğlub etmişdi.

Hazırda Azər Bağırovun yetirmələri 17 turdan sonra 41 xalla turnir cədvəlinə başçılıq edir. MOİK növbəti oyununu martın 8-də ən yaxın rəqibi "Sumqayıt-2"yə qarşı səfərdə keçirəcək.

* * *

Boks Mərkəzində yeniyetmə boksçular arasında keçirilən Azərbaycan birinciliyinə yekun vurulub. Bakı və respublikanın müxtəlif bölgələrini təmsil edən 50-yə yaxın komandanın qatıldığı yarışda 268 idmançı mükafatlar uğrunda mübarizə aparıb. 6 gün davam edən birincilikdə 2003-2004-cü il təvəllüdlü yeniyetmələr gücləri sınayıblar.

MOİK idmançıları da yarışda fərqlənənlər sırasında olub. Belə ki, Turğay Mirzəyev 57 kq çəki dərəcəsində bütün rəqiblərini üstələyərək çempion adını və qızıl medal qazanıb. Namiq Əliyev isə 66 kq çəki dərəcəsində yalnız final döyüşündə məğlub olub və gümüş medal qazanıb.

Əlavə edək ki, MOİK-in məşqçisi Bəhruz Kərimov turnirin ən yaxşı məşqçisi seçilib.

**Elvin YAQUBOV**

3-cü dərəcəli kapitan Tağıyev Ceyhun Xanlar oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi yararsız (tanınmaz) hala düşdüyü üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Nurəliyeva Səadət Sakit qızına 2016-cı ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 187
Nüsxə 3950